UOT: 008
Ayşən HÜSEYNOVA
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
Milli Azərbaycan Tarixi Muzeyi, ekskursiyaçı
ayshan96huseynova@gmail.com
https://doi.org/10.61226/12.3.4.2023.8

DÜNYA ƏHƏMİYYƏTLİ QƏDİM AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN MƏDƏNİ TURİZMİN İNKİŞAFINDA ROLU

Xülasə: Müasir dövrdə qeyri-neft setktoru kimi turizm bütün dünya ölkələrinin iqtisadiyyatının inkişafında başlıca rol oynayan sahələrdən birinə çevrilmişdir. Bu sektor ölkənin milli gəlirinin artırılmasına töhfə verməklə yanaşı onun müxtəlif aspektlərdən beynəlxalq aləmdə tanınmasına da şərait yaradır. Məhz turizm vasitəsilə müxtəlif mədəniyyət nümayəndələri müəyyən məqsədlərlə ölkəmizə səfər edir və xalqın qədim tarixi və zəngin mədəniyyəti ilə tanış olmaq imkanı qazanırlar. Bunu nəzərə alaraq turizm işinin nizama salınması və daha çox inkişaf etdirilməsi istiqamətində hər il qanunlar, fərmanlar və dövlət proqramları hazırlanıb qəbul olunur. Turizm əsasən istirahət və əyləncə xarakteri daşımasına baxmayaraq sosial-iqtisadi, siyasi və mədəni funksiyalara da malikdir. Mədəniyyət və turizmin qarşılıqlı əlaqəsi mədəni turizmin yaranıb inkişaf etməsinə şərait yaratmışdır. Mədəni turizm Azərbaycanın bəşər sivilizasiyasının formalaşmasındakı rolunu göstərmək və qədim tarixini və zəngin mədəniyyətini qlobal miqyasda təbliğ etməkdə böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tarixi-mədəniyyət abidələri ilə zəngin olan dünya əhəmiyyətli qədim Azərbaycan şəhərlərinin rolu da danılmazdır. Məqalə müxtəlif illərdə YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınmış İçərişəhər və Şəki şəhərinin mədəni turizm potensialı və bu turizm növünün inkişaf etdirilməsi ilə əlaqədar görülən tədbirlərdən bəhs edir. Əldə olunan nəticələr beynəlxalq səviyyədə tanınan qədim şəhərlərin nəinki tarixi-mədəniyyət abidələri o cümlədən orada həyata keçirilən yerli və beynəlxalq tədbirlərin və fəaliyyət göstərən sənət mərkəzləri də mədəni turizmin inkişafına töhfə verdiyini göstərir.
Açar sözlər: Azərbaycan, turizm, mədəniyyət, potensial, şəhər

Ayshan GUSEYNOVA

THE ROLE OF ANCIENT AZERBAIJANI CITIES OF WORLD IMPORTANCE IN THE DEVELOPMENT OF CULTURAL TOURISM

Abstract: Nowadays, as a non-oil sector tourism has become one of the fields playing the main role in the economy of all world countries. As well as contributing the increase of national profit, this sector paves the way for the recognition of the country in terms of various aspects. Thanks to tourism, representatives of different backgrounds visit our country for certain purposes and gain the chance of getting acquainted with ancient history and rich culture of the people. Given this fact, every year laws, decrees and state programs are adopted towards regulating and further developing the tourism business. Being one of the primary forms of relaxation and entertainment, tourism also implements socio-economic, political, and cultural functions. The interaction between culture and tourism has paved the way for the emergence and development of cultural tourism. The cultural tourism is of great significance to demonstrate the role of Azerbaijan in the formation of human civilization and to promote globally its ancient history and rich culture. In this regard, the role of ancient Azerbaijani cities, which are of world importance and opulent with historical and cultural monuments, is undeniable. The paper deals with cultural tourism potential of Icherisheher (Old City) and the city of Sheki that were inscribed on the UNESCO World Heritage List in various years, and the measures taken to improve this type of tourism. The obtained results indicate that not only historical and cultural monuments of those old cities but also local and international events and art centers operating there contribute to the development of cultural tourism.

Keywords: Azerbaijan, tourism, culture, potential, city

Айшан ГУСЕЙНОВА

РОЛЬ ДРЕВНИХ АЗЕРБАЙДЖАНСКИХ ГОРОДОВ МИРОВОГО ЗНАЧЕНИЯ В РАЗВИТИИ КУЛЬТУРНОГО ТУРИЗМА

Абстракт: настоящее время туризм можно считать одним из не нефтяных секторов экономики, играющим важную роль в экономическом развитии большинства стран мира. Помимо увеличения государственной прибыли, эта отрасль способствует популяризации страны на мировой арене. Посредством туризма, приезжим создаются условия не только для посещения страны, но и создаётся возможность знакомства с древней историей и богатой культурой народа. Учитывая этот факт, ежегодно разрабатываются государственные программы, принимаются законы и постановления направленные на регулирование и дальнейшее развитие туристического дела в стране. Являясь одним из основных видов отдыха и развлечений, туризм таким образом, обладает также социально-экономическими, политическими и культурными функциями. Взаимодействие культуры и туризма создало условия для возникновения и развития культурного туризма. Культурный туризм имеет большое значение для демонстрации роли Азербайджана в формировании мировой цивилизации, а также ппопуляризации его древней истории и богатой культуры. В этом аспекте неоспорима роль древних азербайджанских городов, богатых историко-культурными памятниками мирового значения. В статье рассматривается культурно-туристический потенциал Ичеришехера (Старого города) и города Шеки, внесенных в разные годы в Список Всемирного Наследия ЮНЕСКО, особое внимание уделено мерам, принимаемым для улучшения данного вида туризма. Полученные результаты свидетельствуют, что развитие культурного туризма древних городов обеспечивается не только за счет их богатых историко-культурных памятников, свой весомый вклад в это дело вносят открытие центров культуры, а также различные мероприятия как местного так и международного характера.

Ключевые слова: Азербайджан, туризм, культура, потенциал, город

Giriş

Müasir dövrdə turizm bütün dünyada ən mühüm milli dəyərlərindən birinə çevrilmişdir. Turizm həm dövlət gəlirinin artırılmasına, həm də ölkənin beynəlxalq səviyyədə tanınmasına əsaslı şəkildə təsir göstərən bir sahə hesab olunur. Bu qeyri-neft sektoru müxtəlif aspektlərdən ölkə iqtisadiyyatının inkişafına şərait yaratmaqla yanaşı maddi və qeyri-maddi mədəni dəyərlərin qorunması və təbliğində əvəzedilməz rola malikdir.

Neftin tükənən təbii sərvətlərdən olduğu faktını nəzərə alsaq, dünyada neft ixracına görə tanınan bir çox ölkələr, eləcə də Azərbaycan artıq bu təbii resursdan aslılığı azaltmaq və qeyri-neft sektorları, o cümlədən turizmin davamlı inkişafını təmin etməyi qarşısına məqsəd qoymuşdur. Son dövrlərdə mərkəzi dövlət siyasəti çərçivəsində turizmə ayrılan xüsusi diqqət onun inkişafı üçün göstərilən səylərin sübutudur. Bu baxımdan həyəta keçirilən turizm siyasəti ölkənin iqtisadi inkişafı və ölkə hüdudlarından kənarda da milli dəyərlərin tanıdılmasına yönəlmişdir.

Ölkəmizdə turizmin inkişafı müvafiq hüquqi sənədlərlə tənzimlənərək sahənin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. “Turizm haqqında” Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli 674-IQ nömrəli Qanunu, “Turizm haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 44-VIQ nömrəli Qanunu, Azərbaycan Respublikasında 2002-2005-ci və 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramlarının təsdiq olunması, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamına əsasən 2011-ci ilin Azərbaycan Respublikasında “Turizm ili” elan edilməsi, bununla əlaqədar geniş Tədbirlər Planının təsdiq və icra olunması, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan

Respublikasında ixtisaslaşmış turizm sənayəsinin inkişafına dair Strateji Yol Xəritəsi görülən tədbirlərə bariz nümunədir [6]. Qəbul olunmuş normativ hüquqi aktlar turizm sahəsində yeni bir mərhələnin başlanğıcı hesab edilir və ölkənin turizm potensialından səmərəli şəkildə istifadəyə şərait yaradır.

Turizm əsasən istirahət və əyləncə xarakteri daşımasına baxmayaraq sosial-iqtisadi, siyasi və mədəni funksiyalara da malikdir. Turimin mədəni funksiyanı həyata keçirməsi onun mədəniyyətlə sıx bağlılığını və yalnız gəlir mənbəyi olaraq deyil, eyni zamanda mədəni mübadilə vasitəsi olaraq əhəmiyyətli olduğunu göstərir. Bu iki sahə - turizm və mədəniyyət - qarşılıqlı təsir göstərərək bir-birinin inkişafında mühüm rol oynayır. Mədəni irs dünyanın müxtəlif ölkələrindən insanların marağını cəlb edərək turist axınına, turizm isə öz növbəsində mədəni irsin qorunması və populyarlaşdırılmasına imkan yaradır. Bu baxımdan sahələr arasındakı qarşılıqlı təsir yeni bir turizm növünün, yəni mədəni turizm anlayışının yaranmasına gətirib çıxarmışdır. Fundamental turizm nəzəriyyələrinə əsaslanaraq izah edilən "mədəni turizm" terminiə BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən belə tərif verilir:

Mədəni turizm insanların öz yaşadıqları ərazidən çıxıb digər şəhərlər, yaxud ölkələrin mədəni irs nümayiş obyektlərini görmək, yeni məlumat və təcrübə toplayaraq öz mədəni ehtiyaclarını təmin etmək, həmçinin insanların öz yaşadıqları yerdən başqa digər yerlərdəki abidələri, həmin ərazinin incəsənəti və mədəni özünüifadə formalarını (etnoqrafik elementlər və s.) görmək məqsədilə bir yerdən digər yerə hərəkət etmək fəaliyyətidir [2, s.12].

Turistlərin əksəriyyəti əsasən səyahət etdikləri ölkənin tarixi, mədəniyyəti və xalqın yaşayış tərzi ilə bağlı yeni bilik və təcrübə qazanmaqda maraqlı olur. Ölkənin qədimliyini və bəşər sivilizasiyasının formalaşmasındakı rolunu sübuta yetirən maddi və qeyri-maddi mədəni irs nümunələri onu turistlər üçün daha cəlbedici edən zəruri faktorlardan biridir. Bu baxımdan maddi mədəni irs nümunəsi hesab olunan tarixi-mədəniyyət abidələri mədəni turizmin inkişafında, ölkənin beynəlxalq aləmdə tanınmasında mühüm rola malikdir. Məhz bu maddi-mədəniyyət nümunələri xalqın qədim və zəngin tarixi və mədəniyyətini əks etdirməklə yanaşı insanların həmin ölkəni turizm destinasiyası kimi seçməyə sövq edir.

Qədim şəhər mərkəzləri mədəni turizm destinasiyaları kimi

Tarixən Azərbaycan hər zaman qədim yaşayış məskənləri və tarixi-mədəniyyət abidələrinin mərkəzi hesab olunmuşdur. Ölkə ərazisi yerli xalqla yanaşı müxtəlif mədəniyyət nümayəndələrinə ev sahibliyi etmişdir. Əsrlər boyu müxtəlif dil, din və mədəniyyət daşıyıcıları ölkəmizin bir çox regionunda heç bir manea ilə üzləşmədən azad şəkildə yaşamış, xalqın sosial-iqtisadi, mədəni həyatında fəal iştirak etmiş və tarixi-mədəniyyət nümunələri yaradaraq mədəniyyətimizdə iz buraxmışlar. Bir neçə minillik tarixə və mədəniyyətə malik olması, maddi və qeyri-maddi irs və təbii resurslarla zənginliyi, multikulturalizmin mövcudluğu Azərbaycanı mədəni turizmin inkişafı üçün böyük potensiala sahib ölkələr sırasına daxil etmək üçün zəruri amillər hesab olunur.

Azərbaycanın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda çoxəsrlik tarix-mədəniyyət abidələri var. Bu abidələrin Azərbaycana səyahət edən turistlərin yerli xalqın tarixi və mədəni dəyərləri ilə tanış olması üçün böyük əhəmiyyəti var. Azərbaycan xalqı əsrlər boyu tarix-mədəniyyət abidələrinin qorunub saxlanması üçün daim səy göstərmişdir. Həmin abidələrin qorunub saxlanılması və bərpası hazırda qanunvericiliklə təmin edilir ki, bu da öz növbəsində mədəni turizmin inkişafına və ölkəyə daha çox ziyarətçi cəlb edilməsinə zəmin yaradır. Bundan əlavə, mədəni irsin bütün dünyada populyarlaşdırılması istiqamətində bir sıra zəruri tədbirlər və addımlar atılmış, bir sıra tarixi-mədəniyyət abidələri YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınmışdır. Bu strategiyalar ölkəyə daha çox turistin cəlb edilməsinin və Azərbaycanda mədəni turizmin sürətli inkişafının əsas göstəriciləridir.

Ölkəni dünya miqyasında mədəni turizmin mərkəzinə çevirən və Azərbaycanda bu turizm növünün geniş inkişafına mühüm töhfə verən həmin tarixi-mədəniyyət abidələrindən biri Bakının, eləcə də Azərbaycan tarixi və mədəniyyətinin incisi kimi qiymətləndirilən İçərişəhərdir. İçərişəhər orta əsrlərdə Azərbaycanın yüksək inkişaf etmiş şəhərsalma sənətinin qiymətli nümunəsidir. Qala

divarları ilə əhatə olunmuş şəhərə "Bakı şəhərində "İçərişəhər"in, Şuşa və Ordubad şəhərlərinin tarixi hisslərinin tarix-arxitektura qoruqları elan edilməsi haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1977-ci il 10 avqust 280 nömrəli qərarına əsasən İçərişəhərə Tarix-Memarlıq Qoruğu statusu verilmiş, 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdir. Hər bir azərbaycanlının qəlbində qürur hissi oyadan bu "muzey-şəhər" həm də ölkəmizin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk tarixi abidəsidir. 2000-ci il noyabrın 27-dən dekabrın 2-dək Avstraliyanın Kernz şəhərində keçirilən YUNESKO-nun Ümumdünya Mədəni İrs Komitəsinin 24-cü sessiyası çərçivəsində "İçərişəhər Qız Qalası və Şirvanşahlar Sarayı Kompleksi ilə birlikdə" Ümumdünya İrs Siyahısına daxil edilmişdir. İçərişəhərin Qız Qalası və Şirvanşahlar Sarayı Kompleksi ilə birlikdə YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınması onun ümumbəşəri dəyər kimi qəbul edilməsinin və layiqincə qiymətləndirilməsinin göstəricisi olmaqla yanaşı, eyni zamanda Azərbaycan ilə YUNESKO arasında mədəniyyət sahəsində əməkdaşlıq əlaqələrin inkişafına güclü təkan vermişdir.

Orta əsr memarlığı nümunələri ilə zəngin tarixi mərkəz olan İçərişəhər 22 hektar ərazini əhatə edir və açıq səma altında muzey kimi tanınır. Amfiteatr üslubunda inşa edilmiş İçərişəhər Xəzər sahilindəki kiçik təpə üzərində yerləşərək hündürlüyü 8-10, eni 3,5 metr olan qala divarları ilə əhatə olunmuşdur. Tarixi mənbələr və əldə olunmuş arxeoloji materiallar insanların bu ərazidə hələ tunc dövründən bəri məskunlaşdığını söyləməyə imkan verir. Qoruq ərazisində XVIII-XIX əsrlər memarlığının yüksək elmi, tarixi və mədəni dəyərə malik orta əsrlərdə tikilmiş onlarla nadir yaşayış binaları və memarlıq abidələri dövlət tərəfindən qorunur. XII əsrə aid müdafiə divarları ilə əhatə olunmuş memarlıq nümunələri Şərq və Qərb ənənələrinin vəhdətinin özündə əks etdirir. İçərişəhər kompleksinə daxil olan üç dünya əhəmiyyətli, 28 ölkə əhəmiyyətli memarlıq, konservasiya olunmuş səkkiz arxeoloji və 500-dən çox yerli əhəmiyyətli abidə Azərbaycan xalqının zəngin tarixi və mədəniyyətini nümayiş etdirir. Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası İçərişəhərin memarlıq inciləri olsa da, burada yerləşən karvansara, hamamlar, məscidlər, bazar meydanı qədim şəhərin ölkə üçün özünəməxsus əhəmiyyətinə malik olduğundan xəbər verən və Azərbaycan memarlıq sənətinin müxtəlif mərhələlərini əyani şəkildə təcəssüm etdirən abidələr hesab olunur.

İçərişəhərin memarlıq inciləri - Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası – şəhəri bütün beynəlxalq aləmdə tanıdan və mədəni turizm məkanlarını kəşf etməkdə maraqlı turistləri cəlb edən əsas abidələrdir. Dövrümüzə qədər gəlib çatan çoxsaylı Azərbaycan milli memarlıq abidələri arasında Şirvanşahlar Sarayı Kompleksi kimi çoxlu səyyahların və tədqiqatçıların diqqətini cəlb edən abidə tapmaq çətindir. Müasir Bakı şəhərinin köhnə hissəsində, İçərişəhərdə salınmış bu möhtəşəm saray öz gözəlliyi, əzəməti, yüksək inşa səviyyəsi, özünəməxsus bədii ifadəliliyi ilə bütün tikililər arasında seçilir. Saray kompleksinə əsas bina-saray, divanxana, türbə, Şah məscidi, dərviş məqbərəsi, Murad qapısı və hamam daxildir. Sarayın ərazisində aparılan arxeoloji qazıntılar zamanı sarayın bina və tikililərinin eyni dövrdə deyil, ayrı-ayrı tarixi dövrlərdə inşa edildiyi və saray binasının onların arasında ilk tikili olduğu müəyyən edilmişdir [1, s.99].

Bakının qədim tarixi rəmzlərindən biri olan Qız qalası "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən milli memarlığımızın nadir nümunəsidir. Daşdan hazırlanmış nəhəng silindr formasında olan bu abidənin hündürlüyü şimal tərəfdə 28 metr, cənub tərəfdə isə 31 metrdir. Qalanın divarlarının qalınlığı əsas hissəsində 5 metr, 8-ci mərtəbədən isə 4 metrdir. Qala abidəni səkkiz mərtəbəyə bölən səkkiz günbəzdən ibarətdir. Onun tikilmə tarixi olduqca sirlidir. Bəzi tədqiqatçılar qalanın aşağı hissəsinin V-VI əsrlərdə tikildiyini, digər bir qrup alimlər isə yuxarı hissəsinin XII əsrdə tikildiyini ehtimal edərək, qala divarındakı ərəbcə yazını sübut kimi göstərirlər. Qalanın tikilmə məqsədi də tam olaraq məlum deyil. Abidənin daha çox müdafiə xarakterli və ya qədim dini inancların mərkəzi kimi tikildiyi güman edilir.

İçərişəhər tarixən həm də Azərbaycanın əsas multikultural mərkəzlərindən biri olmuşdur. Burada həm yerli əhalinin, həm də müxtəlif etnik qrupların dini inanclarını əks etdirən çoxsaylı abidələr mövcuddur. İçərşəhərdə yerli mədəniyyət abidələri ilə yanaşı, qalıqları hələ də qorunub saxlanılan Müqəddəs Nikolay kilsəsi və Müqəddəs Varfolomey kilsəsi kimi kilsələr də fəaliyyət

göstərmişdir. Bundan əlavə, burada qədim milli adət-ənənələrin əsl nümunəsi olan hamamlar, xarici tacirlərin mehmanxanası kimi fəaliyyət göstərmiş karvansaralar da var. Bu qiymətli abidələr İçərişəhərə müxtəlif mədəniyyətlərdən olan turistlərin ziyarətinə şərait yaradaraq mədəni turizmin inkişafına səbəb olur.

İçərişəhər ərazisində ən qədimi IX əsrə (Baba Kuhi Bakuvi məscidi) aid olmaqla, müxtəlif illərdə tikilmiş məscidlərə rast gəlmək mümkündür. Bunlara Məhəmməd, Minarəli Came (Cümə məscidi), Bəylər, Saray, Gileyli, Aşur, Keyqubad, Xıdır, Molla Əhməd, Mirzə Əhməd məscidlərini və digərlərini misal göstərmək olar. 1078-79-cu illərdə Məhəmməd əbu-Bəkroğlu tərəfindən inşa edilmiş Məhəmməd məscidi Bakı-Abşeron memarlıq məktəbinin incilərindən hesab olunur. Məscid I Pyotrın kəşfiyyat məqsədilə Bakıya göndərdiyi rus donanmasının admiralı Matyuşkinin göstərişinə əsasən şəhərin top atəşinə tutulması nəticəsində minarənin bir tərəfi dağıldığına görə xalq arasında həm də "Sınıqqala" adlanır. 1378-79-cu illərdə atəşgah məbədinin yerində salındığı güman edilən Cümə məscidinin XIV əsrdə bərpa olunduğu ehtimal olunur. XIX əsrin sonu XX əsrin əvvəllərində isə xeyriyyə məqsədilə qədim abidənin yerində Bakının imkanlı şəxsiyyətlərindən olan Hacı Şıxəli Dadaşov tərəfindən yeni məscid inşa olunmuşdur. Azsaylı xalqlar ölkəmizin müxtəlif regionlarında, o cümlədən İçərişəhərdə də yaşamışdır. Xalqın tolerantlığı və mutikultural dəyərlərə önəm verdiyini 1169-cu ildə ustad Nəcəf Aşur İbrahim oğlu tərəfindən tikilmiş Aşur məscidinin timsalında görmək mümkündür. Bu baxımdan düzbucaqlı formada inşa olunmuş məscidin həm də "Ləzgi məscidi" adlandırılması təsadüf deyil. Məscid İçərişəhər sakinləri tərəfindən qazanc əldə etmək məqsədilə Bakıdakı sənayə müəssisələrinə üz tutan dağıstanlı fəhlələrin ibadəti üçün ayrılmış və bu adla tanınmasına səbəb olmuşdur.

Maddi mədəniyyət nümunələri vasitəsilə Azərbaycanın hələ qədim zamanlardan müxtəlif azsaylı xalqların nümayəndələrinə ev sahibliyi etdiyini, onlara öz mədəniyyət, dil və dini etiqadlarını qoruyub saxlamaq və sərbəst yaşamaları üçün əlverişli şərait yaratdığının şahidi ola bilərik. Bu faktların əyani sübutu olan həmin memarlıq nümunələrinin bəzilərinin yadellilər tərəfindən dağıdılmasına baxmayaraq onların qalıqları hələ də qorunub saxlanılır. Qız qalası yaxınlığında Bakının ilk və ən qədim kilsəsinin özülləri üzərində inşa edilmiş Müqəddəs Varfolomey kilsəsi İçərişəhərin multikulturalizm mərkəzlərindən olduğunu təsdiq edən başqa bir sübut hesab oluna bilər. Kilsə 1892-ci ildə imanı uğrunda Həvari Məsih Varfolomeyin b.e. 71-ci ilində şəhid edildiyinə inanılan və "qara sıralar" adlandırılan yerdə yerli xristian əhalinin şəxsi ianələri hesabına tikilmişdir. Layihə müəllifi alman əsilli rusiyalı memar İ.V. Edel olan kilsə rus kilsələrinin memarlıq üslubunda inşa edilmişdir. Tikintisi təxminən 2000 rubla başa gələn kiçik kapella formalı ortodoks kilsəsinin interyerini həvari Varfolomey və digər müqəddəslərin ikonaları bəzəyirdi. 1936-cı ilədək fəaliyyətdə olan ibadətgah dinlə mübarizə kompaniyası çərçivəsində sökülmüşdür. Hazırda Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında saxlanılan Müqəddəs Varfolomeyin qalıqlarının bir hissəsi 2003-cü ildə Konstantinopol Patriarxı Vorfolomey tərəfindən Azərbaycan xristianlarına hədiyyə olaraq Bakıya gətirilmişdir. 2015-ci ildə arxeoloji abidə kimi qeydə alınmış kilsə qalıqları olan yerdə hər il Müqəddəs Varfolomeyin anım günü olan 24 iyun səhəri Bakı yeparxiyası tərəfindən dua mərasimi həyata keçirilir.

Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini özündə təcəssüm etdirən müxtəlif növ tarix-mədəniyyət abidələri İçərişəhərin mədəni turizm potensialını göstərən yeganə amil deyil. Ötən bir neçə il ərzində şəhərdə müxtəlif təyinatlı turizm obyektlərinin əsası qoyulmuş və turizm infrastrukturu təkmilləşdirilmişdir. Muzey-şəhərdə hazırda hotellər, muzeylər, həm yerli, həm də dünya mətbəxini təmsil edən restoranlar, qədim sənət sahələrini müasir üsullarla təqdim edərək yerli və əcnəbi turistlərin diqqətini cəlb edən qalereyalar və mədəni təsisatlar və bu kimi ictimai-iaşə və ticarət obyektləri fəaliyyət göstərir. İçərişəhərin mədəniyyət mərkəzinə çevrilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmiş, yeni muzey ekspozisiyaları açılmış, Qoruğun mədəni turizm potensialının artırılması məqsədilə ənənəvi sənət sahələrinin inkişafına dəstək verilmişdir. 2009-cu ildən başlayaraq İçərişəhərin Qoşa Qala qapısı meydanında "Meydan bazarı" adlı mədəni-kütləvi tədbirlərin keçirilməsi bu istiqamətdə atılan ilk addımların bariz nümunəsidir. Azərbaycan xalqının qədim sənətkarlıq ənənələrini təbliğ etmək məqsədi daşıyan tədbir

çərçivəsində müxtəlif milli tətbiqi sənət növlərinə aid məhsullar və suvenirlər, o cümlədən rəsm əsərləri, zərgərlik, keramika və taxtaoyma sənəti nümunələri və Azərbaycanın zəngin milli mətbəxinin sərgi-satışı təşkil olunur, ölkəmizin müxtəlif bölgələrindən gələn sənətkarlar öz əl işlərini burada nümayiş etdirilir və əcnəbi qonaqlara əyani şəkildə həmin sənətkarlıq nümunələrinin hazırlanması prosesini izləmələrinə şərait yaradılaraq milli mədəniyyət və tariximiz tanıdılır.

2010-cu ildən İçərişəhərdə keçirilən "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı mədəni turizmin inkişafı istiqamətində atılan növbəti addımdır. Mədəniyyətlərarası dialoqa xüsusi töhfə verən bu festival Azərbaycanın ən qədim və əsrarəngiz dünya əhəmiyyətli abidələrindən biri olan Qız Qalasını təbliğ etmək məqsədi daşıyır. Müxtəlif ölkələri təmsil edən rəssamlar Qız qalasının maketləri üzərində öz dünyagörüşlərinə uyğun müxtəlif mədəniyyət və adət-ənənələrin sintezini əks etdirən əsərlər yaradırlar [4].

Hər il İçərişəhərdə Novruz bayramı münasibətilə beynəlxalq festival təşkil edilir və şənliklər keçirilir. Türkiyə, Rusiya, İran, Pakistan, Özbəkistan kimi bir çox ölkə nümayəndələrinin iştirak etdiyi bu festival zamanı mədəniyyətimizi əks etdirən sərgilər təşkil edilir, musiqili tədbirlər keçirilir, oyunlar oynanılır, müxtəlif növ yeməklər və şirniyyatlar hazırlanır, Novruz bayramı ilə bağlı digər adət və ənənələr nümayiş etdirilir. Qədim tarixi, adət və ənənələri, eləcə də mədəniyyətin digər bütün sahələrini incə detalları ilə əks etdirməsi baxımdan keçirilən festivallar mühüm əhəmiyyət kəsb edərək mədəni turizmin inkişafına böyük töhfə verir.

Azərbaycanın beynəlxalq miqyasda tanınan digər qədim şəhəri ölkənin şimal-qərb hissəsində yerləşən Şəki şəhəridir. Tarixi mənbələrə görə, insanlar təxminən 2500 il əvvəl bu ərazidə məskunlaşdığına görə şəhər Qafqaz regionunun ən qədim insan məskənlərindən biri hesab olunur. XVIII əsrdə Şəki xanlığının mərkəzi olmuş qədim şəhər zəngin tarixi, mədəniyyəti, sənətkarlıq ənənələri və tarixi-mədəni abidələri ilə məşhurdur ki, bu da öz növbəsində şəhəri əlverişli mədəni turizm destinasiyalarından birinə çevirmişdir. Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şəki hazırda YUNESKO-nun şəhərlər arasında beynəlxalq əməkdaşlığın təşviqi məqsədi ilə şəbəkənin formalaşmasına dəstək verən birliyin Yaradıcı Şəhərlər Şəbəkəsinin (Creative Cities Network) üzvüdür. Təsadüfi deyildir ki, 2019-cu il iyulun 7-də Bakı Konqres Mərkəzində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Şəhərin malik olduğu gözəlliklər onun arxitekturasında öz əksini tapmışdır. Bu memarlıq nümunələrində qədim şəhəri xatırladacaq özəlliklər aydın şəkildə özünü göstərir. Səyyah, tarixçi Evliya Çələbinin xatirələrində də bu barədə bəzi məlumatlara rast gəlmək mümkündür: "*Daşdan tikilmə Şəki qalası təpənin üstündə ucaldılmışdır. Qalanın Şirvan və Gəncə adlı iki darvazası var. Burda minlərlə ev, yeddi məscid, onların arasında Mirzə Əli məscidi bazar küçəsində yerləşməsiylə xüsusi diqqəti cəlb edir. Şəhərin həmçinin bir neçə karvansara-mehmanxanası, hamamı və balaca bazarı vardır"* [5]. Şəkinin Şəkixanovların evi, Giləkli məscidin minarəsi, Kiş kilsəsi (Qafqaz Alban məbədi), hamamlar, ev muzeyləri, Zəyzid məbədi (XI-XII əsrlər), Şəkinin dairəvi məbədi (XVII-XIX əsrlər), Yuxarı Karvansara, Aşağı Karvansara, Şəki qalası – Narınqala, Gələrsən-görərsən qalası kimi tarix-mədəniyyət abidələri həm bölgə, həm də ölkə üçün xüsusi dəyərə malikdir.

Şəhərin şimal-şərq hissəsində yerləşən və qala divarları ilə əhatə olunmuş Şəki Xan Sarayı təkcə Qafqazda deyil, həm də müsəlman Şərqində XVIII əsrin saray memarlıq üslubunun ən gözəl nümunələrindən biri kimi qəbul edilir. 300 kvadratmetr sahəsi olan bu ikimərtəbəli saray altı otaq, dörd dəhliz və iki güzgü eyvanından ibarətdir. Saray 1763-cü ildə Hüseyn xan tərəfindən tikilib və minlərlə kiçik şüşə parçası "şəbəkə" (ingilis dilindən tərcümədə "net" "tor" deməkdir) pəncərə mozaikasının dizaynı üçün istifadə olunmuşdur. "Şəbəkə" sənətinin özəlliyi ondan ibarətdir ki, həmin şüşə parçaları əsasən qoz və ya palıd ağaclarından hazırlanmış taxtaya yapışqansız və mismarsız bir-birinə bərkidilir. Mədəni turizmin inkişafına təkan verən əsas amil kimi bu abidələr şəhərin qədim tarixini yaşadır və turistləri Şəkini kəşf etməyə daha da həvəsləndirir.

Hər il "Sənətkarlıq Festivalı" ("Crafts Festival") və "İpək Yolu Musiqi Festivalı" ("Silk Road Music Festival") kimi mədəni tədbirlər və festivallar keçirilir və Şəki dünyanın müxtəlif

ölkələrinin nümayəndələrinə ev sahibliyi edərək mədəni turizmin inkişafına töhfə verir. Bundan əlavə, əsas ticarət yollarının xüsusilə də Böyük İpək Yolu üzərində yerləşməsi və xammalın bolluğu Şəkinin mühüm mədəniyyət və ticarət mərkəzlərindən biri olmasına, sənətkarlıq ənənələrinin (ipəkçilik və tikməçilik, şəbəkə, dulusçuluq, zərgərlik, papaqçılıq, dülgərlik, metal emalı və s.) inkişafına zəmin yaratmışdır. Karvansaralar, tut bağları, ipək fabrikləri qədim şəhərin İpək Yolunun əsas dayanacaqlarından biri olduğunu sübut edir. Şəki dünyada yüksək keyfiyyətli ipək istehsalçısı olduğuna görə "Qafqaz Lionu" da adlandırılır. Şəhərin tarixi hissəsində çoxlu sənətkarlıq dükanları, sənət mərkəzləri, ipək fabrikləri, emalatxanalar və bazarlar da var. Onların arasında Şəki Dövlət Rəsm Qalereyası, Sənətkarlar Evi, Şəbəkə emalatxanası, ABAD Keramika və Tətbiqi Sənət Mərkəzi, AzərİpəkİpəkFabriki ziyarətçilərin ustad dərslərində iştirak etmələri və nadir sənət növləri ilə tanış olmaları üçün böyük əhəmiyyət kəsb edir Bütün bu tədbirlər bu bölgədə mədəni turizmin inkişafında zəruri rol oynayır [3, s.16].

Nəticə

Nəticə etibarilə, turizm və mədəniyyət arasında qarşılıqlı əlaqə ölkənin tanıdılması və gəlir əldə edilməsi üçün əsas mənbə kimi xidmət edən mədəni turizmin yaranmasına və inkişafına səbəb olmuşdur. Bu tədqiqatın nəticələri də Azərbaycanın regionlarının böyük mədəni turizm potensialına malik olduğunu sübut edir. Bakı və Şəkinin beynəlxalq miqyasda tanınan tarixi mərkəzləri tarix və mədəniyyət abidələri, ölkənin zəngin mədəniyyətini əks etdirən ictimai tədbirlər, müxtəlif incəsənət mərkəzləri baxımdan müstəsna dəyərə malikdir. Bu qədim tarixi mərkəzlərə Azərbaycan dövləti tərəfindən xüsusi diqqət yetirilir və təkcə bu şəhərlərdə deyil, bütün ölkə ərazisində mədəni turizmin daha da inkişaf etdirilməsi üçün mühüm addımlar atılır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi: [Elektron resurs] / Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. – 17 dekabr, 2016.
URL:https://president.az/az/articles/view/22134
2. Cabbarov, M. İçərişəhər – dünya mədəni irsinin nadir incisi // Respublika. – 2012, 26 dekabr. – s. 5.
3. Məmmədova, Ş.M. Azərbaycanın tarixi-memarlıq abidələri / Ş.Məmmədova. – Bakı: [n. y.], – 2008. – 136 s.
4. Mustafayev, E,. Azərbaycanda Mədəni İrs və Mədəni Turizm: Resurslar, Məhsullar, Təcrübələr / E.Mustafayev, E. Kərimov – Bakı: [n. y.], – 2022. 112 s.
5. Cultural Development Strategy for Sheki City: [Electrinic resource] / EU4Culture. – 2022.
URL:https://www.heritage.org.az/storage/2022/11/01/9LSacFgC8jAduXuaMNA64ayiThzX3h2UqkjXforD.pdf
6. Sheki Khan's Palace and historic center of Sheki: [Electrinic resource] / Azerbaijan-UNESCO Relations (Presidential Library). – 2017.
URL: https://unesco.preslib.az/en/page/pvebY7yjd4

Məqalənin redaksiyaya daxilolma tarixi: 15.11.2023
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.11.2023
Məqalənin çapa qəbul olunma tarixi: 26.11.2023